**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Satınalmalar Komitəsinin müsabiqənin ləğv edilməsi ilə əlaqədar çağırılmış iclasının**
**Protokolu № 13-3/3-3-494**

**Bakı şəhəri** **19 07 iyul 2023-cü il**

| | | |
|---|---|---|
| **Sədr:** | - Cəbrayıl Mahmudlu | - Sədr müavini |
| **Sədr müavini:** | - Nurlan Həmidov | - Satınalmalar departamentinin rəisi |

**İştirak edirdilər:**

1. Nurlan Həmidov- Satınalmalar departamentinin rəisi.
2. Zaur Nağıyev-Sədr müavini.
3. Fəxrəddin Həsənov -Maliyyə və uçot departamentinin rəisi.
4. Balakişi Səfərov-Donanmanın texniki-istismar departamentinin rəisi.
5. Samir Abdullayev- Sədrin köməkçisi.
6. Elşad Abdullayev- İqtisadi təhlil və proqnozlaşdırma departamentinin rəisi.
7. Rəşad Göyüşov- Texniki direktorun müavini.

**Gündəlikdə duran məsələ:**

AM094/2023 saylı 23 iyun 2023-cü il tarixli "AXDG" QSC-nin tabeliyində olan gəmilərə tələb olunan elektrik malarının satınalınması üzrə açıq müsabiqənin nəticələrinin ləğv edilməsi

**Dinlənildi:**

Gündəlikdə olan məsələ ilə bağlı Satınalmalar Komitəsinin ümumi məsələlər üzrə katibi V. Cəlilov iclas iştirakçılarına məlumat verərək bildirdi ki, AM094/2023 saylı 23 iyun 2023-cü il tarixli "AXDG" QSC-nin tabeliyində olan gəmilərə tələb olunan elektrik malarının satınalınması məqsədilə açıq müsabiqə keçirilmişdir. Müsabiqədə 3(üç) şirkət iştirak etmişdir. Bunlardan CMİ MMC və Universal Pro QSC-yə dəfələrlə müraciət edilməsinə baxmayaraq onlar müsabiqədə qeyd olunmuş elektrik mallarının dəqiq

parametlərini təqdim etməmişlər və göndərilmiş sorgular cavabsız qalmışdır. Digər üçüncü şirkətin Prime Energy and Marine Services MMC müsabiqə təklifi ehtimal olunan dəyərdən xeyli çox olmasını nəzərə alaraq, müsabiqə nəticələrinin ləgv olunması məqsədə uygun hesab olunur.

**Qərara alındı:**

1. AM094/2023 saylı 23 iyun 2023-cü il tarixli "AXDG" QSC-nin tabeliyində olan gəmilərə tələb olunan elektrik malarının satınalınması üzrə keçirilən açıq müsabiqənin nəticələri ləğv edilsin.

2. Müsabiqənin ləğv edilməsi ilə bağlı müvafiq məlumat iştirakçılara bildirilsin.

3. Yeni müsabiqənin keçirilməsi haqqında iştirakçılara məlumat verilsin.

Cəbrayıl Mahmudlu ____________________

Vüqar Cəlilov ____________________